"050402 - Biznesin idarə edilməsi"

| Fənlərin sayı | Fənnin adı | AKTS kredit |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| **1** | **Azərbaycan tarixi**<br>Bu fənn ən qədim dövrlərdən başlayaraq müasir dövrədək Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun mərhələlərini ardıcıllıqla öyrənir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün bütün tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Tarixi keçmişimizdən yararlanmaqla yanaşı əsas məqsad tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | **5** |
| **2** | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik va işgüzar vazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | **4** |
| **3** | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | **15** |
| **4** | **Seçmə fənlər**<br>(Seçmə fənlar ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | **6** |
| **4.1** | **Fəlsəfə**<br>Bu fənn fəlsəfənin yaranması və inkişafının əsas mərhələləri, varlıq haqqında fəlsəfi təlim, materiya anlayışı. Müasir elm materiyanın quruluşu haqqında, hərəkət. Məkan və zaman, dialektikanın əsas qanunları və kateqoriyaları, fəlsəfədə şüur problemi, insanın fəlsəfi anlamı, təbiət və cəmiyyət, idrak və onun strukturu, elmi idrak və onun metodları, yaradıcılıq və intuisiya, elmin etikası, sosial idrakın spesifikliyi. Cəmiyyət özüinkişaf edən sistemdir, ictimai həyatın əsas sferaları. İqtisadi həyatın fəlsəfi səpkisi, cəmiyyətin sosial sferası, siyasi həyatın fəlsəfi təhlili, cəmiyyətin mənəvi həyatı, tarixi prosesin subyektləri və hərəkətverici qüvvələri, mədəniyyət və sivilizasiya, şəxsiyyət və sosial dəyərlər təhlil və tədqiq edilir.<br>**Sosiologiya**<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət | **3** |

| | | |
|---|---|---|
| | kontekstində nəzərdən keçirir, sosiologiyanın strukturunu, predmetini, metodologiyasını, metodlarının xüsusiyyətlərini, müasir sosioloji biliyin nəzəri səviyyələrini, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyini təhlil və tədqiq edir. Bu sahədə elmi axtarışların mümkün perspektivlərini öyrənir. | |
| | **Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları**<br>Azərbaycan Respublikasının Konstitisiyası, Azərbaycan dövlətinin konstitisiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları. | |
| | **Məntiq**<br>Məntiq fənni insana imkanları obyektiv qiymətləndirməyə, tez və düzgün qərar verməyə, fikirləri aydın şəkildə ifadə etməyə, həmsöhbəti düzgün arqumentlərdən istifadə edərək inandırmağa, qeyri-müəyyən vəziyyətlərdən uzaq olmağa kömək edir. Bu fənn məntiqi düşünmə qabiliyyətini qiymətləndirir, məntiqi qanunauyğunluqları qavramaq və tətbiq etmək bacarığını ölçür və müxtəlif sahələrdə məlumat fondunun nə qədər zəngin olduğunu öyrənməyə imkan verir. | |
| | **Etika**<br>Bu fənndə etik fikir, onun təkamülünün əsas mərhələləri: Qədim Hindistan və Çində etik fikir, antik dövrdə etik fikir, orta əsrlər və yeni etik fikir. Azərbaycanda etik fikir, islam etikası, əxlaqın mahiyyəti və əsas funksiyaları, əxlaq və ictimai şüurun digər formaları, əxlaqi şüur və fəaliyyət, etikanın əsas kateqoriyaları: xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, xoşbəxtlik və həyatın mənası, tətbiqi etika və peşə etikası haqqında məlumat verilir. | |
| | **Multikulturalizmə giriş**<br>Multikulturalizm fənninin mahiyyəti və əhəmiyyəti, Azərbaycanda yaşayan müxtəlif azsaylı xalqların adət-ənənələri, multikulturalizmin sosial-iqtisadi inkişafa təsirləri, multikulturalizmin xarici siyasətə təsirləri, Multikulturalizmi Azərbaycan Respublikasının Dövlət siyasəti olaraq təhlil etmək, Azərbaycan multikulturalizmi ilə dünya multikulturalizm nümunələrini müqayisəli təhlili. | |
| **4.2** | **İnformasiya texnologiyaları (ixtisas üzrə)**<br>Verilən, informasiya və bilik anlayışları, onların xassələri, xarakteristikaları, Əlifbalar, sistemlər, dillər, say sistemləri, kodlaşdırma sistemləri. informasiyanın kodlaşdırılması, hesablama texnikasının təşəkkülü, inkişafı, fərdi kompyuterlərin texniki təminatı. əsas və periferiya qurğuları, informasiya proseslərinin avtomatlaşdırılması alqoritmləri, fərdi kompyuterlərin proqram təminatı. Əməliyyat sistemləri. Windows ƏS., Windows ƏS-nin standart proqramları, tətbiqi proqram təminatı. Ms Office paketi haqqında, mətn tipli informasiyaların emalı. Ms Word mətn redaktoru, kompyuter qrafikası. Qrafik redaktorlar, Ms Power Point qrafik redaktoru, ədəd tipli informasiyaların emalı. Ms Excel elektron cədvəli, | **3** |

| | | |
|---|---|---|
| | verilənlər Bazası. Baza modelləri. VBİS-lər, informasiya sistemləri, Relyasion VBİS-lər. Ms Access VBİS, informasiyanın şəbəkə emalı. Kompüter şəbəkələri, Lokal şəbəkələr. Şəbəkə topologiyaları, şəbəkə arxitekturası. OSİ modeli. Protokollar, ünvanlaşma, qlobal informasiya infrastrukturu İnternet, informasiya təhlükəsizliyi. İnformasiya mühafizəsi | |
| | **İnformasiyanın idarə edilməsi**<br>İnformasiyanın idarə edilməsi fənni İKT baza kompyuter bilikləri fənninin davamı olaraq tədris edilir. Fənnin tədrisində əsas məqsəd - İKT baza kompüter bilikləri fənnində öyrənilənlərin tətbiqi ilə tanış olmaq, informatlaşmış cəmiyyət dövründə müasir informasiya texnologiyalarının tətbiq sahələrini öyrənmək və onları düzgün tətbiq edə bilməkdir. Belə ki, burada dövlət idarəçiliyində, iqtisadiyyatda, bank və turizm sektorunda, biznes sahəsində informasiya texnologiyalarının rolu, həmçinin bulud texnologiyaları, onun tətbiqləri və modelləri haqqında məlumat verilir. | |
| | **Sahibkarlığın əsasları və biznesə giriş**<br>Sahibkarlıq mühiti və rəqabəti, kiçik və orta sahibkarlıq, sahibkarlıq fəaliyyətində vergiqoyma, qiymət siyasəti, menecment və marketinq sistemi. Biznesin təşkilati- hüquqi formaları. GZİT təhlil, sahibkarlığın xarici və daxili mühiti. Kommersiya, maliyyə, məsləhət, istehsal sahibkarlığı. Uçot, yenidən bölüşdürmə, stimullaşdırıcı, balanslaşdırıcı və istehsalın yerləşdirilməsi. | |
| | **Politologiya**<br>Politologiya siyasət haqqında elmdir. Siyasi fikrin inkişafının əsas mərhələləri. Azərbaycanın siyasi fikrinin inkişaf mərhələləri. Siyasət cəmiyyətin tənzimləyici, təşkiledici və nəzarətedici funksiyasıdır. Siyasi hakimiyyət və onun daşıyıcıları. Siyasi elita. Siyasi sistem nəzəriyyəsi. Siyasi rejimlər. Siyasi partiyalar və partiya sistemləri. Demokrasiya: əsas təsisatlar. Parlament başlıca demokratik təsisatdır.Seçki sistemləri. Dövlət başlıca siyasi təsisatdır. Siyasi şüur və siyasi ideologiya.Siyasi mədəniyyət.Vətəndaş cəmiyyəti. Dünya siyasəti nəzəriyyəsi və beynəlxalq siyasi münasibətlər. Modernləşdirmə konsepsiyası siyasi inkişafın nəzəri modeli kimi. Siyasi texnologiyalar. Siyasi tədqiqatlar və siyasi təhlil. Siyasi qərarların qəbulu. Beynəlxalq münasibətlərin politologiyası.Beynəlxalq siyasətin qlobal problemləri . Dövlətin xarici siyasət fəaliyyəti. | |
| | **İxtisas fənləri** | **120** |
| **5** | **İqtisadiyyata giriş**<br>Bu fənndə mühüm istisadi anlayışlar izah edilir, bazar iqtisadiyyatının ümumi xarakteristikası verilir və məhdud iqtisadi ehtiyatların səmərəli istifadə olunmasında bazar mexanizminin rolu müəyyənləşdirilir. İqtisadi subyektlərin qərar qəbul etməsini şərtləndirən prinsiplər açıqlanır. | **6** |
| **6** | **Mikroiqtisadiyyat**<br>İqtisad subyektlərin manfəətini və faydasını maksimumlaşdırmaq baxımından davranışlarmı öyrənir, müvafiq bazar raqabəti | **10** |

| | | |
|---|---|---|
| | modellərindən ev təsərrüfatları və firmaların qəbul etdikləri qərarları şərtləndirən amilləri təhlil edilir, iqtisadi ehtiyatların səmərəli istifadəsində bazar mexanizminin üsütünlükləri və çatışmazlıqları göstərilir. | |
| 7 | **Makroiqtisadiyyat**<br>İqtisadi ehtiyatların bötövlükdə rasional istifadə edilməsi baxımından ölkədə dayanıqlı iqtisadi artımın va makroiqtisadi sabitliyin təmin edilməsi, iqtisadi ehtiyatların tam və səmərəli istifadə edilməsi, işsizliyin və inflyasiyanın minimumlaşdırılması, xarici iqtisadi əlaqələrin optimallaşdırılmasının nəzəri və praktiki məsələləri təhlil edilir. Problemlərin həll edilməsində dövlətin iqtisadi siyasətinin istiqamətləri göstərilir. | **10** |
| 8 | **Xətti cəbr və riyazi analiz**<br>"Xətti cəbr və riyazi analiz" fənni "Xətti cəbr" və "Riyazi analiz" bölmələrindən ibarətdir. "Xətti cəbr" xətti tənliklər, xətti faza, xətti çevirmə kimi xətti təbiətə malik obyektləri, "Riyazi analiz" isə differensial, inteqral hesabının köməkliyi ilə funksiya və dəyişən kəmiyyətləri öyrənir. | **8** |
| 9 | **Ehtimal nəzəriyyəsi və riyazi statistika**<br>"Ehtimal nəzəriyyəsi və riyazi statistika" fənni "Ehtimal nəzəriyyəsi" və "Riyazi statistika" bölmələrindən ibarətdir. "Ehtimal nəzəriyyəsi" təsadüfi hadisələrin baş verməsinin riyazi qanunauyğunluqlarını, "Riyazi statistika" isə statistik qanunauyğunluqların müəyyən edilməsi məqsədi ilə məlumatın yığılmasının, emalının və müşahidələrin nəticələrinin interpretasiyasının riyazi üsullarını öyrənir. | **8** |
| 10 | **İKT - baza komputer bilikləri**<br>Bu fənn iqtisadi yönümdə təhsil alan gələcək mütəxəssislərə müasir informasiya proseslərinin həyata keçirlməsində istifadə olunan üsul və vasitələr haqqında geniş məlumat verir, iqtisadi proseslərin ayrılmaz tərkib hissəsi olan yeni informasiya va Internet texnologiyaları üzrə müasir bilikləri aşılavır. | **8** |
| 11 | **Statistika**<br>Bu fənn keyfiyyətcə müəyyən edilmiş kütləvi sosial-iqtisadi hadisə və proseslərin kəmiyyət tərəfini, onların tərkibini, bölgüsünü, konkret məkan və zaman şəraitində mövcud qarşılıqlı asılılıqlarını və qanunauyğunluqlarını öyrənir. | **10** |
| 12 | **Ekonometrika**<br>Bu fənn riyazi va statistik metod, modellərdən istifadə edərək iqtisadi obyektlərin və proseslərin spesifik kamiyyət və keyfiyyət əlaqələrini öyrənir. | **10** |
| 13 | **Menecment**<br>Bu fənn menecmentin əsas funksiyalarını, menecerlərin rollarını, təşkilati quruluşları və onların hər birinin üstün və mənfi cəhətlərini, liderlik növlərini öyrənir, təşkilatlardakı qrup və komanda dinamikasın, təşkilat mədəniyyətini, müxtəlifliyin faydalarını tədqiq edir. | **7** |
| 14 | **Biznesin əsasları**<br>Sahibkarlığın əsas iqtisadi-hüquqi institutlarının öyrənilməsi, biznes planlaşdırmanın əsas aspektlərinin mənimsənilməsi və sahibkarlıq niyyətinin işlənilməsi, sosial-iqtisadi alətlərin sahibkarlıqda fəal surətdə istifadə olunmasını öyranir | **6** |
| 15 | **Təşkilati davranış**<br>Bu fənnin öyrənilməsi nəticəsində tələbə təşkilati davranışın əsas məqsədini və elmi əsaslarını müzakirə edə biləcək və təşkilati dəyişiklik və inkişaf | **4** |

| | | |
|---|---|---|
| | strategiyalarını hazırlamağı bacaracaqdır. Tələbə eyni zamanda iş məmnuniyyəti, motivasiya və təşkilatı kimlik masalalari haqqında məlumatlı olacaqdır. İşçilərin iş yerinə qarşı bağlılıq hissini gücləndirmə yollarını öyrənəcək, çalışanların təşkilat daxilində qrupların idarə olunması və qrup formalaşmasını təhlil edə biləcəkdir. Buna bağlı olaraq təşkilatlarda qruplarda işləmə üsullarını və qrup növlərini tanıyacaqdır. İşə bağlılıq duyğusunun yüksəltmənin yollarını öyrənəcək və təşkilat daxilindəki qarşıdurmaları həll etmə addımlarını öyrənəcəkdir. Bununla yanaşı bəzi qarşıdurmaları necə fürsətə çevirə biləcəyini öyrənəcəkdir. Stres, etik idarəetmə, güc va siyasət kimi mövzuları müzakirə edə biləcək və təşkilati davranış çərçivəsində müasir mövzular (işdə var olmamaq, təşkilati səssizlik va s.) haqqında bilgi sahibi olacaqdır. | |
| **16** | **İnsan resurslarının idarəedilməsi**<br>Bu fənn "İnsan resurslarının idarəedilməsinin", onun məqsəd va hədəflərinin nə olduğunu, yüksək ixtisaslı kadrların müəssisəsəyə necə cəlb edilməsini, seçim prosesinin necə aparılmasını öyrədir, müəssisədə performans qiymətləndirilməsi, karyeranın idarəedilməsi, motivasiya və s. kimi funksiyaların işləmə prinsiplərini tədqiq edir. | **4** |
| **17** | **Marketinq**<br>Bu fənn sayəsində tələb marketinqin tərifi, marketinqə aid ilkin anlayışların formalaşması, marketinqin mühiti haqqında biliklərin toplanması ilə yanaşı Bazarın seqmentasiyası, bazar bilgi sistemləri, marketinq miks haqqında biliklərə və tətbiqlərə yiyələnmək haqqında biliklər əldə edə biləcək. Eyni zamanda, mahsul, məhsulun yaşam əyrisi, brend və brending haqqında ilkin anlayışlara sahib olacaq va qiymətləndirmə strategiyalarını müəyyən edə bilməklə yanaşı, qiymət və qiymətin formalaşması ilə bərabər tələbə bölüşdürmə, bölüşdürma formaları, kanalları, pərakəndə və toptan satışçılar haqqında ilkin anlayışlara da yiyələnəcək. Tanıtım üçün vacib olan irəlilətmə (Promotion) miks -reklam, ictimaiyyətlə əlaqələr, satış təşviq, personal satış, birbaşa satış fəaliyyətləri haqqında nümunələr və hər birinin öyrənib, istehlakçı davranışları, strateji marketinq, marketinqdə etika, marketinqdə müasir yanaşmalar haqqında ilkin məlumatlar qazanacaqdır. | **6** |
| **18** | **Maliyyə uçotu**<br>Bu fənn çərçivəsində tələbələrə mühasibatın əsas prinsipləri, ikili yazılış qaydaları aşılanmaqla yanaşı, iqtisadi amillərin və hadisələrin müəssisənin maliyyə cədvəllərinə təsirləri izah olunur. | **6** |
| **19** | **Əməliyyatların idarəedilməsi**<br>Bu fənn əməliyyatların planlanmasın, tədarük zənciri va logistika proseslərinin planlaşdırılması və idarə olunması və bu proseslərlə əlaqəli informasiya texnologiyalarından istifadə edilməsini öyrənir, istehsalçı və ticarət şirkətlərinin beynəlxalq əlaqələrini yaratmaq və bu alaqələri qorumaq üçün hansı bilik və bacarıqlara sahib olunmasını tədqiq edir. | **4** |
| **20** | **Biznes strategiyası**<br>Bu fənnin öyrənilməsi nəticəsində tələbə strateji idarəetmə ilə əlaqədar əsas termin və anlayışları (strategiya, missiya, viziya, məqsəd, politika və s.) öyrənərək, şirkətin strategiyasının təməlləri olan xarici (makro mühit, sektor mühiti və əsas rəqiblərlə əlaqədar şirkəti gözləyən fürsət və təhlükələr) və daxili (şirkətin rəqiblərlə müqayisədə güclü və zəif yönləri) mühit faktorlarının izlənməsi, qiymətləndirilməsi və strategiya hazırlanmasında istifadəsini | **4** |

| | | |
|---|---|---|
| | metodlarını (EFE və IFE matrisləri, dəyər zinciri analizi) öyrənəcək. Əlavə olaraq inteqrasiya strategiyaları, intensiv strategiyalar, çeşidləndirmə strategiyaları, Müdafiə strategiyaları, Maya dəyəri liderliyi, Fərqliləşdirmə və Mövqelənmə strategiyaları kimi təşkilati və strateji iş vahidi səviyyəsində tətbiq edilə biləcək strategiyalar haqqında ətraflı məlumat əldə edəcəkdir. Xarici və daxili mühit analizinin naticələri çərçivəsində strategiyaların formalaşdırılması metodlarını (SWOT analizi, BCG matrisi, SPACE matrisi, IE matrisi) va strategivanın seçilməsi metodlarını (QSPM matrisi) biləcək və formalaşdırılan strategiyaların icra edilməsi istiqamətində taktikləri öyrətmək. Bu məqsədlə şirkətin ayrı ayrı funksiyalarının (menecment, istehsal, marketinq, maliyyə və mühasibat, insan resurslarının idarəedilməsi, araşdırma və gəlişdirma, menecment informasiya sistemləri) strategiyanın icra edilməsindəki yeri və önəmini anlayacaqdır. İcra edilən strategiyaların şirkətin məqsədlərinə nə dərəcədə cavab verdiyini analiz etməyi, strategiyadakı əksiklikləri ortaya çıxarmağı biləcək və şirkətin beynəlxalq mühitdə rəqabət edə bilməsinin və uğur qazanmasının təməllərini öyrənmək. Strateji idarəetmə prosesinin sosial məsuliyyət və etik dəyərlər içərisində həyata keçirilməsinin əsas prinsiplərini öyrənəcəkdir. | |
| **21** | **Beynəlxalq biznes**<br>Malların, xidmətlərin, texnologiyaların, kapitalın və/və yaxud biliklərin milli sərhədlər vasitəsilə milli və yaxud transmilli miqyasda ticarət olunmasını və çox milli müəssisələrin beynəlmiləlləşməsi prosesini öyrənir | **6** |
| **22** | **Mülki müdafiə**<br>Bu fənn çərçivəsində müxtəlif global FH-rin sürətlə artdığı müasir dövrdə insanın ətraf mühitində təhlükəsizliyinə və sağlamlığının qorunmasına yönəldilmiş qaydalar tadris olunur. Bu fann hamçinin zərərli amillərin aşkara çıxarmasını və eyniləşdirməsini, insanın mühafizəsinin metod va vasitələrini, zərərli va təhlükəli amillərin minimum dərəcəyə qədər azaldılması yollarını, sülh və müharibə dövrü baş verən qaza hallarının, fəlakətlərin nəticələrini aradan qaldırmaq üçün tədbirlərin görülməsi ilə bağlı məsələləri əhatə edir. | **3** |
| | **ATM tərəfindən müəyyən edilən fənlər:** | **60** |
| **23.** | **Seçmə fənn:** | **4** |
| 23.1 | **İşgüzar ingilis dili**<br>İngilis dili beynəlxalq dil olmaqla yanaşı, həmçinin əsas işgüzar dildir. Bu baxımından "İşgüzar ingilis dili"nin yüksək səviyyədə öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu fənn vasitəsilə tələbələr şifahi igilis dili üzrə işgüzar ünsiyyət bacarıqları və özünə inam artırmaq, müzakirə və danışıqlar üçün dil bacarıqlarını inkişaf etdirmək, ingilis dili ölkələrinin biznes mədəniyyətini öyrənmək imkanına yiyələnirlər. "İşgüzar ingilis dili" fənninin qarşısına qoyulan əsas məqsəd xarici dilə praktik olaraq hərtərəfli yiyələnmiş ingilis dilli mütəxəssis hazırlamaqdan ibarətdir. | |
| 23.2 | **Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları**<br>Azərbaycan Respublikasının Konstitisiyası, Azərbaycan dövlətinin konstitisiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları. | |

| | | |
|---|---|---|
| 24 | **Seçmə fənn:** | **5** |
| 24.1 | **İşgüzar yazışmalar**<br>İşgüzar yazışmalar üzrə işlərin təşkili, xidməti sənədlərin hazırlanması. Sənədlərin tərtibinə dair ümumi qaydalar. Təşkilati-sərəmcamverici sənədlər, onların tərtibi və rəsmiləşdirilməsi. Məlumat-arayış sənədləri və onların tərtibi qaydaları. Aktların idarəetmədə rolu və rəsmiləşdirilməsi. Kadr sənədləri və onların tərtibi. Maliyyə-hesabat, bank və vergi əməliyyatları üzrə sənədləşmələr. Kommersiya sahəsi üzrə sənədlər və onlarla işin təşkili. Əmək və əhalinin sosial müdafiəsi orqanlarında kargüzarlığın aparılması qaydası və müraciətlər üzrə işgüzar yazışmalar. Beynəlxalq işgüzar yazışmalar. İdarələrdə sənədlərin dövriyyəsi, qeydiyyatı və icrasına nəzarət. Sənədlərin sistemləşdirilməsi və onların arxivə təhvil verilməsinin təşkili. Yerli icra hakimiyyəti orqanları və bələdiyyələrin işgüzar yazışmaları. Kadrlara aid olan sənədlərin saxlanılma sistemi. Məktub və ərizələrin üzərindəki sərəncamların icra olunmasına dair nəzarət və vətəndaşların qəbulu ilə bağlı məsələləri əhatə edir. | |
| 24.2 | **Kommersiya fəaliyyətinin əsasları**<br>Kommersiya əlaqələrinin inkişafı, kommersiya fəaliyyətinin etikası və işgüzar danışıqların təşkili, mal çeşidinin formalaşmasının kommersiya strategiyası, kommersiya fəaliyyəti sferası, kommersiya riski, kommersiya fəaliyyətində reklam, cəmiyyətlə əlaqələr və onun kommersiya fəaliyyətində rolu, beynəlxalq kommersiya, birja, yarmarka-sərgi və hərrac ticarətinin spesifik xüsusiyyətləri, lizinq, françayzinq, faktorinq, kommersiya müəssisələrinin fəaliyyətinin planlaşdırılması və dövlət tənzimlənməsi, kommersiya fəaliyyətinin idarə edilməsi konsepsiyası, marketinq fəaliyyətinin konsepsiyası ilə bağlı məsələləri əhatə edir. | |
| **25** | **Seçmə fənn:** | **5** |
| 25.1 | **Qiymətli kağızlar**<br>Qiymətli kağızların təsnifatı, səhmlər, onların mahiyyəti və təsnifatı, istiqrazların iqtisadi mahiyyəti və təsnifatı, dövlət və bələdıyyə qiymətli kağızları, korporativ qiymətli kağızlar, ödəniş və əmtəə qıymətli kağızları, qiymətli kağızların emissiyası, yerləşdirilməsi və tədavülü, qiymətli kağızlarla əməliyyatlar və əqdlərin bağlanması, qiymətli kağızlar bazarı, onun quruluşu və funksiyaları, qiymətli kağızlar bazarının tənzimlənməsi, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, qiymətli kağızlar bazarında ticarətin təşkili və fond birjası, qiymətli kağızların birjadankənar dövriyyəsi, beynəlxalq qiymətli kağızlar bazarı ilə bağlı məsələləri əhatə edir. | |
| 25.2 | **İqtisadi informatika**<br>İnformasiya sistemlərinin əsas komponentləri və fəaliyyəti, verilən, informasiya və bilik, iqtisadi informasiya, informasiyanın ölçüləri, say sistemləri, informasiyanın emalının alqoritmləşdirilməsinin əsasları, hesablama texnikası tarixi, komputerlərin təsnifatı, fərdi kompyuterlərin | |

| | | |
|---|---|---|
| | təyinatı, əsas və periferiya qurğuları, kompüterin proqram təminatı, əməliyyat sistemləri, Ms Windows əməliyyat sistemi, mətn prosessorları, təqdimat proqramları (Ms Word, Power point), elektron cədvəl prosessorları (Ms Excell ), verilənlər bazası ilə idarəetmə sistemləri, kompüter hesablama şəbəkələri, qlobal kompüter şəbəkəsi olan İnternet ilə bağlı məsələləri əhatə edir. | |
| **26.** | **Seçmə fənn:** | **5** |
| 26.1 | **Biznesdə risklərin idarə olunması**<br>Biznes fəaliyyətində risklərin idarə olunmasının nəzəri-metodoloji əsasları, risklərin qiymətləndirilməsi, risklərin idarə olunmasında beynəlxalq təcrübədən istifadə olunması, ümumi riskin ölçülməsi göstəriciləri, Azərbaycanda biznes layihələrində yaranan risklərin idarə edilməsi mexanizmləri ilə bağlı məsələləri əhatə edir. | |
| 26.2 | **Maliyyə biznesi**<br>İnvestisiya və innovativ idarəetməyə beynəlxalq yanaşma, investisiya layihəsinin həyat dövrü, investisiya edilmiş kapital üzrə gəlir, layihənin müəssisənin iş fəaliyyətinə təsiri, innovativ və investisiya fəaliyyətləri prosesində müəssisənin bazar potensialının qiymətləndirilməsi və investisiya biznesi, müəssisənin (biznesin) bazar dəyərinin qiymətləndirilməsi, onun proqnozlanması və investisiya imkanı, müəssisələrin maliyyə vəziyyətinin express diaqnozu, müəssisənin maliyyə vəziyyətinin idarə edilməsi, xərclərin idarə edilməsi ilə bağlı məsələləri əhatə edir. | |
| **27.** | **Seçmə fənn:** | **5** |
| 27.1 | **Azərbaycan iqtisadiyyatı**<br>Bu fənn Azərbaycan iqtisadiyyatının makroiqtisadi mənzərəsini, sosial iqtisadi göstəricilərin dinamikasını öyrənir, iqtisadi siyasətin əsas konturlarını, sektorlar arasındakı əlaqələri təhlil edir. Həmçinin milli iqtisadiyyatın beynəlxalq ticarətdəki mövqeyini və mövcud vəziyyətə uyğun müvafiq iqtisadi siyasət təkliflərini təhlil edir | |
| 27.2 | **Firmanın iqtisadiyyatı**<br>Sahibkarlığın forma və növləri, sahibkarlıq riski, firmada (müəssisədə) istehsal prosesi və onun təşkili, firmanın kadrları, əmək məhsuldarlığı, əmək haqqı, əsas fondları və istehsal gücü, dövriyyə fondları və dövriyyə vəsaitləri, istehsal xərcləri və məhsulun maya dəyəri, mənfəəti, rentabellik göstəriciləri, maliyyəsinin idarəedilməsi, investisiya və innovasiya fəaliyyəti, istehsal-təsərrüfat fəaliyyətinin planlaşdırılması, xarici-iqtisadi fəaliyyəti, Sanasiya və firmanın müflisləşməsi ilə bağlı məsələləri əhatə edir. | |
| 27.3 | **Dövlət xəzinədarlığı**<br>Dövlət büdcə uçotunun mahiyyəti və onun xüsusiyyətləri, büdcə təşkilatlarının gəlir və xərclərinin dövlət xəzinədarlıq agentliyi vasitəsilə kassa icrasının uçotu, Azərbaycanda dövlət xəzinədarlıq işlərinin təşkili və tətbiqinin mərhələləri, dövlət xəzinədarlıq sistemində dövlət | |

| | | |
|---|---|---|
| | öhdəçiliklərinin qəbulu və icrası prosesi, büdcə təşkilatları tərəfindən alınan malların, qəbul olunan iş və xidmətlərin xəzinə uçotunun təşkili, kassa vəsaitlərinin planlaşdırılması və idarə edilməsi, dövlət xəzinədarlığı sistemində büdcə xərclərinin icra edilməsinin təşkili və maliyyə nəzarəti, dövlət xərcləri üzərində xarici auditin təşkili, xəzinədarlığın idarə edilməsinin informasiya sistemi, dövlət xəzinədarlıq sisteminin təkmilləşdirilməsi istiqamətləri ilə bağlı məsələləri əhatə edir. | |
| **28.** | **Seçmə fənn:** | **3** |
| 28.1 | **Beynəlxalq kommersiya işi**<br>Beynəlxalq kommersiya təcrübəsinin təşkilati-hüquqi tənzimlənməsi, əmtəələrin alqı-satqısı barədə BMT konvensiyası, idxal-ixrac əməliyyatları: tənzimlənməsi və statistik hesabatı. Beynəlxalq bazarın mahiyyəti, məzmunu və tədqiqi, beynəlxalq alqı-satqı sazişlərinin hazırlanması və bağlanılması, nümunəvi kontraktlar, beynəlxalq alqı-satqı sazişlərinin icra edilməsinin təşkili, beynəlxalq qarşılıqlı kommersiya əməliyyatları, ticarət vasitəçilik əməliyyatları, növləri, təşkilati formaları, beynəlxalq əmtəə birjalarında kommersiya əməliyyatlarının təşkili və texnikası, beynəlxalq auksionlar (hərraclar) və müzaidələrdə, yarmarka və sərgilərdə kommersiya əməliyyatları, mühəndis-texniki xidmətlərin beynəlxalq mübadiləsi, beynəlxalq kommersiya əməliyyatlarında beynəlxalq reklam işinin təşkili, beynəlxalq texnologiya, elmi-texniki biliklər mübadiləsi və lisenziya mübadiləsinin, beynəlxalq icarə və turizm əməliyyatları, beynəlxalq istehsal kooperasiyası ilə bağlı məsələləri əhatə edir. | |
| 28.2 | **Mühasibat uçotu**<br>Mühasibat balansı, hesablar sistemi və ikili qeyd üsulu, sənədləşmə, inventarlaşma, qiymət və kalkulyasiya, mühasibat uçotunun registrləri texnikası və formaları, müəssisələrdə mühasibat uçotunun təşkili əsasları və prinsipləri, pul vəsaitləri və hesablaşma əməliyyatlarının uçotu, əsas vəsaitlərin və qeyri maddi aktivlərin uçotu, material-istehsalat ehtiyatlarının uçotu, əməyin və onun ödənişinin uçotu, istehsala məsrəflərin uçotu və məhsulun maya dəyərinin kalkulyasiyası, hazır məhsulun buraxılışı və satışının uçotu, maliyyə nəticələrinin uçotu, maliyyə investisiyalarının və qiymətli kağızların uçotu, kapitalların (fondların) uçotu, öhdəliklərin uçotu, vergiyə cəlbolunma əməliyyatlarının və xarici iqtisadi fəaliyyətin uçotu, mühasibat (maliyyə) hesabatı ilə bağlı məsələləri əhatə edir. | |
| **29.** | **Seçmə fənn:** | **7** |
| 29.1 | **Maliyyə təhlili**<br>Maliyyə təhlilinin təşkili və informasiya bazası, növləri və formaları, məhsul istehsalı və satışının, istehsalın təşkilati- texniki səviyyəsinin, müəssisənin (birliyin) əsas fondlarla (vəsaitlə) təchiz olunması və onlardan istifadənin, müəssisənin (birliyin) əmək resursları ilə təmin olunması və əmək haqqı fondundan, material resursları ilə təmin | |

| | | |
|---|---|---|
| | olunması və onlardan istifadənin, məhsulun maya dəyərinin, maliyyə nəticələrinin və iqtisadi həvəsləndirmə fondlarının, maliyyə vəziyyətinin, tikinti təşkilatlarının təsərrüfat fəaliyyətinin və müəssisənin (firmanın) marketinq, investisiya fəaliyyətlərinin təhlili, ASK-da təhlilin xüsusiyyətləri, maliyyə nəzarəti sistemində audit ilə bağlı məsələləri əhatə edir. | |
| 29.2 | **Pul və banklar**<br>Pul sistemi, pul tədavülü, nağdsız pul dövriyyəsi və onun təşkili, inflyasiya, kreditin mahiyyəti və funksiyaları, bankların meydana gəlməsi və inkişafı, bank sistemi, Mərkəzi Bank, kommersiya bankları, onların fəaliyyəti və strukturu, qiymətli kağızlar bazarı, beynəlxalq valyuta kredit münasibətləri və maliyyə-kredit təşkilatları ilə bağlı məsələləri əhatə edir. | |
| **30.** | **Seçmə fənn:** | **4** |
| 30.1 | **Biznesin infrastrukturu**<br>Biznesin infrastrukturunun formalaşması və xarakteristikası, müəssisə və təşkilatların əmtəə bazarı, anbar və tara təsərrüfatları, maliyyə bazarı, kredit bazarı, innovasiya və investisiya bazarı, lizinq bazarı, sığorta bazarı, informasiya bazarı, əmək bazarı və qiymətləndirmə fəaliyyəti bazarı ilə bağlı məsələləri əhatə edir. | |
| 30.2 | **Koorporativ idarəetmə**<br>Korporativ menecmentin modelləri və onların xarakteristikası, Korporasiyaların fəaliyyət mexanizmi və icraedici orqanı, səhmdar cəmiyyətləri və səhmdarların ümumi yığıncağı, Korporativ strukturların idarə edilməsində Direktorlar Şurasının və Katibliyin fəaliyyətinin təşkili, korporativ menecmentdə informasiyaların açıqlanması sistemi və korporativ münaqişələr, korporativ mədəniyyət, işgüzar etika və nəzarət, sosial məsuliyyət, korporativ menecmentin səmərəliliyinin qiymətləndirilməsi və maliyyə aspektləri, korporativ vergi menecmenti və mülkiyyətin auditi , korporativ idarəetmə sahəsində beynəlxaq təcrübə ilə bağlı məsələləri əhatə edir. | |
| **31.** | **Seçmə fənn:** | **5** |
| 31.1 | **Biznes etikası**<br>Biznes etikasının inkişaf mərhələləri və istiqamətləri, əsas konsepsiyaları, mənəvi davranışın formalaşdırılması, biznes etikasının mikro və makro mühit amilləri, korporativ mədəniyyət və koporativ etika, işgüzar münasibətlər etikası, biznesdə münaqişələr və onların həlli etikası, inzibati etika, biznesdə etiket və Azərbaycanda işgüzar etika ilə bağlı məsələləri əhatə edir. | |
| 31.2 | **Biznesin təhlükəsizliyi**<br>İqtisadi təhlükəsizlik sistemində biznes təhlükəsizliyinin yeri və rolu, işgüzar tərəfdaşlıq psixologiyası, işgüzar kəşfiyyat sistemiminin təşkili, firmanın iqtisadi fəaliyyətinin hüquqi mühafizəsi, kommersiya sirri və onun qorunmasının təşkili, sənədlərin məxfililik rejiminin və heyətin | |

| | | |
|---|---|---|
| | buraxiliş rejiminin təmin edilməsi, informasiyanin toplanması və təhlili, bençmarkinq, işgüzar kəşfiyyat etikası, sənaye casusluğu, informasiyanın rəqiblərdən qorunması, işgüzar əks kəşfiyyat, firmanın maddi əmlakının təhlükəsizliyinin təmin edilməsi, yükdaşınmaların təhlükəsizliyinin təmin edilməsi, müştərilərə və nəqliyyata nəzarət, yanğın təhlükəsizliyi, biznesin təhlükəsizliyinin təmin edilməsində yeni texnologiyalar ilə bağlı məsələləri əhatə edir. | |
| **32.** | **Seçmə fənn:** | **5** |
| 32.1 | **Gömrük işinin təşkili**<br>Azərbaycan Respublikasında gömrük siyasəti və gömrük işinin təşkili, gömrük nəzarətinin növləri, gömrük prosedurları və rəsmiləşdirilməsi, xarici-iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi, gömrük ekspertizası, ödənişləri, dəyəri və onun təyin edilməsi üsulları, valyuta nəzarəti, gömrük işində qeyri-tarif tənzimlənməsi üsulları, gömrük statistikası və xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, gömrük orqanlarında hüquq-mühafizə fəaliyyəti, idarəetmənin əsasları və təşkilati strukturları, gömrük sistemində idarəetmə prosesi ilə bağlı məsələləri əhatə edir. | |
| 32.2 | **Sığorta işi**<br>Milli iqtisadiyyatda sığortanın rolu, sığorta bazarının sosial iqtisadi məzmunu və mahiyyəti, sığorta fəaliyyətinə dövlət nəzarətinin zəruriliyi və vəzifələri, təkrarsığortanın mahiyyəti, rolu və əsas formaları, sığorta menecmentinin təşkilinin əsasları və marketinq xidməti, sığorta ehtiyatlarının formalaşdırılması və aktuar hesablaşmalar, sosial sığorta və müavinət sistemi, əmlak sığortasının növləri və müqavilələrin bağlanması qaydaları, fərdi qəza sığortası və onun növləri, mülki məsuliyyətin könüllü və icbari qaydada sığorta olunması, tibbi sığortanın hüquqi əsasları və formaları, həyat sığortası və onun növləri, sığorta şirkətlərinin iqtisadiyyatı və maliyyəsi ilə bağlı məsələləri əhatə edir. | |
| **33.** | **Seçmə fənn:** | **5** |
| 33.1 | **Audit**<br>Auditin mahiyyəti, əhəmiyyəti, məqsəd və vəzifələr, növləri, auditor fəaliyyəti və onun tənzimlənməsinin hüquqi əsasları, audit standartları, auditin təşkilinin əsasları, auditin aparılmasının təşkilinin hazırlıq mərhələsi, auditor yoxlamalarının planlaşdırılması, auditor yoxlamalarına ümumi metodik yanaşma, müxtəlif subyektlərin audit aparılarkən qarşılıqlı münasibətləri, auditin yoxlamalarının xüsusi aspektləri, auditin yekun (sonuncu) mərhələsinə dair bəzi prosedurlar, auditor rəyləri, əsas yoxlama obyektlərində audit aparılması metodikası yekunu ilə bağlı məsələləri əhatə edir. | |
| 33.2 | **İqtisadiyyatın tənzimlənməsi**<br>İqtisadiyyatın tənzimlənməsinin nəzəri və metodoloji əsasları, keçid dövründə iqtisadiyyatın tənzimlənməsinin transformasiyası və dövlətin iqtisadi siyasəti, dövlətin iqtisadi siyasətinin mahiyyəti, dövlət bölməsi və sahibkarlıq fəaliyyətinin tənzimlənməsi, iqtisadi-sosial proqnozlaşdırmanın əsasları, makroiqtisadi proqnozlaşdırma və planlaşdırmanın əsasları, dövlət sifarişi və kontraktı münasibətlərinin tənzimlənməsi, dövlətin büdcə – vergi, investisiya – innovasiya, struktur və pul-kredit siyasəti, dövlətin antiinfilyasiya siyasəti və qiymətlərin | |

| | | |
|---|---|---|
| | tənzimlənməsi, dövlətin aqrar və sosial siyasəti, sosial infrastrukturun inkişafının dövlət tənzimlənməsi, dövlətin antinhisar siyasəti, iqtisadiyyatın dövlət tənzimlənməsi üzrə beynəlxalq təcrübənin Azərbaycanda istifadə imkanları və mexanizmləri ilə bağlı məsələləri əhatə edir. | |
| **34.** | **Seçmə fənn:** | **7** |
| 34.1 | **Bank işi**<br>Mərkəzi Bankın və kommersiya banklarının fəaliyyətinin təşkili, ödəniş sistemi, bankların aktiv və passiv əməliyyatları, investisiya əməliyyatları, valyuta əməliyyatları, bankların pul və kapital bazarında fəaliyyəti, banklarının vasitəçilik əməliyyatları, bank menecmenti və marketinqi, bank fəaliyyətində risklər, banklarda korporativ idarəetmə sistemi, bank fəaliyyətinin maliyyə nəticələrinin təhlili, banklarda uçot işinin təşkili ilə bağlı məsələləri əhatə edir. | |
| 34.2 | **Büdcə və xəzinə uçotu**<br>Büdcə uçotu və hesabatın büdcə prosesində rolu, büdcə və xəzinə uçotunun təşkilinin əsasları və prinsipləri, büdcə təşkilatlarında milli mühasibat uçotu standartları, büdcənin dövlət xəzinədarlıq agentliyi vasitəsilə kassa icrasının uçotu, dövlət xəzinədarlıq sistemində öhdəliklərin qəbulu və malların alışının xəzinə uçotu, büdcədən maliyyələşən təşkilatlarda xəzinə uçotunun təşkili, büdcənin qısamüddətli aktivlərinin uçotunun aparılması, büdcə təşkilatlarında uzunmüddətli aktivlərin uçotu, büdcə təşkilatlarında qısamüddətli və uzunmüddətli öhdəliklərin uçotu, büdcə idarə və təşkilatlarda gəlirlərin, xərclərin və mənfəətin (zərərin) uçotu, büdcə təşkilatlarının maliyyə hesabatlarının tərkib hissələri və onların məzmunu, büdcə təşkilatlarının maliyyə vəziyyəti haqqında və büdcə təşkilatlarının maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatlar, əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti üzrə hesabat, uçot siyasəti və metodikası, büdcə və xəzinə uçotunda xəzinədarlığın hesab kitabları və mühasibat hesabları, büdcə və xəzinə uçotunun beynəlxalq standartlara keçməsinin zəruriliyi və yekun hesabatı. | |
| | **Təcrübə** | **30** |
| **1.** | **Karyera planlaması**<br>“Karyera planlaması” fənninin tədrisinin əsas məqsədi tələbələrin öz maraqlarının, dəyərlərinin, bacarıqlarının, şəxsiyyətinin, fəaliyyətinin və mənlik anlayışının karyera planlaması ilə bağlı qərarlarla necə əlaqəli olduğunu anlamaq və bunla üzərində işləyərək gələcək karyeralarını düzgün istiqamətdə formalaşdirilmasıdır. Həmçinin daha geniş karyera imkanlarını araşdırmaq üçün öz bilik və inamınızı artıraraq sürətlə inkişaf edən iş bazarlarına, uyğunlaşmanıza kömək edəcək. Cari və gələcək işləriniz üçün karyera məqsədlərinizi, bacarıqlarınızı və biliklərinizi əhatə edən bir karyera inkişaf planı hazırlamaq və güclü, istedad və təcrübənizdən ən yaxşı şəkildə istifadə etməyə öyrənilməsidir. Praktiki təkliflərə, nəzəri modellərə və mövcud empirik dəlillərə əsaslanan qiymətli təlimatların alınması. Fənn üzrə bilik və bacalıqlara olan tələblər: Karyera qavrayışı ilə bağlı ilkin bilikləri; Karyera yol xəritəsi mahiyyəti və onun tərtibi; Şəxsin bacarıqları üzrə təhlil və onun inkişaf etdirilməsi yolları; Hədəfə uyğun fəaliyyət planlarının idarə edilməsi; İşğüzar etika, İş axtarma strategiyaları; İş üçün doğru müraciət | **5** |

| | | |
|---|---|---|
| | qaydaları, tövsiyə məktubunun tərtibi; İş müsahibəsinə hazırlığında müxtəlif texnikaları. | |
| **2.** | **Yumşaq bacarıqlar (Soft skills)**<br>Yumşaq bacarıqları şərti olaraq bir neçə qrupa ayırmaq olar: şəxsi bacarıqlar (dərketmə, emosional zəka, refleksiya, məqsədqoyma, zamanın idarəetməsi); kommunikasiya bacarıqları (kütlə qarşısında çıxış etmək, natiqlik, danışıqlar aparmaq, ünsiyyət qurmaq, aktiv idarəetmə, düzgün suallar vermək, mübahisə etmək və s.); sistemlərin qurulması ( strateji, sistemli və yaradıcı düşüncə, proseslərin təşkili, insanları idarə etmək bacarığı). Soft skills – müvəffəqiyyətlə ünsiyyət qurmağa imkan verən keyfiyyətlərdir. Onlar iş prosesini qurmağa, habelə karyera pilləkəni üzrə irəliləməyə imkan verirlər. Bacarıq səviyyəsinin təyin edilməsi: STAR modelinə görə davranış müsahibəsi; situasiya müsahibəsi; "İş" üsuluna əsasən müsahibə. Möhkəm yumşaq bacarıqlara sahib olmaq bu gün istənilən işdə çox qiymətli bir şeydir. Soft skills səriştələri: İnsanlarla münasibətlərinizi inkişaf etdirməyə, söhbəti davam etdirməyə və başqaları ilə ünsiyyət qurarkən kritik vəziyyətləri effektiv şəkildə idarə etməyə kömək edən əsas ünsiyyət bacarıqları. Kreativ, tənqidi və analitik düşüncə formalar – yumşaq bacarıqların tərkib elementi kimi. Komanda işinin prinsipləri, komanda ilə işləmə bacarığı və komanda işinin qurulmasında "Team buildinq" və onun təşkili. Liderlik üslubu və liderlərə tələb olunan əsas keyfiyyətlər. | **9** |
| **3.** | **Sərt bacarıqlar (Hard skills)**<br>Sərt bacarıqlar, asanlıqla öyrənilə bilən qabiliyyətlər və ya bacarıq dəstləridir. Sərt bacarıqlar işə uyğun olan texniki keyfiyyətlərdir. Bu bacarıqlar ümumiyyətlə auditoriyada, onlayn olaraq, kitablar və digər materiallar vasitəsilə və ya iş yerində öyrənə bilər. Onlar işin onurğasıdır və xüsusi tədris və sınaq – yanılma yolu ilə inkişaf etdirilir. Sərt istedadlar, işə götürən tərəfindən sınaqdan keçirilə və ya ölçülə bilənlərdir: xarici dildə ünsiyyət qurma, bacarığı, satış, affilate (birbaşa satışın onlayn versiyası) marketinq, inventar idarə edilməsi, işi təhlil edən, müəyyən bir kompüter proqramlaşdırma dilində təcrübə. Sərt bacarıqlar fənni tələbələrə iş dünyasında ən çox istifadə edilən excel alətlərindən, layihələrin idarə edilməsində proqram təminatlarından səlis istifadəni bacarmaq, iş həyatında şifahi və yazılı kommunikasiya qaydalarını bilmək, rəqamsal savadlılıq istiqamətindəki əsas məqamları anlamaq, şəxsi brendin qurulması yollarını bilməkdir. Rəhbərin sərt bacarıqların göstərilməsi, ilk öncə bu planlaşdırma qabiliyyəti, prioritetləri müıyyənləşdirmək, düzgün məqsəd seçmək, göstərişlərin verilməsi və onların yerinə yetirməsinə çatmaq. | **10** |
| **4.** | **İstehsalat təcrübəsi / layihə**<br>İstehsalat təcrübəsinin əsas vəzifələri aşağıdakılardır: tələbənin ali məktəbdə aldığı nəzəri bilikləri möhkəmləndirmək, dərinləşdirmək və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etmək, tələbələri ixtisasının profilindən və xüsusiyyətindən asılı olaraq, yeni texnologiyalarla, iş üsulları ilə, elmi-tədqiqatlarla və digər məsələlərlə | **6** |

| | | |
|---|---|---|
| | tanış etmək, tələbələrdə işgüzarlıq, təşkilatçılıq və kommunikativ vərdişləri aşılamaq, tələbələrin SMART texnologiyaları sahəsindəki biliklərini təkmilləşdirmək, tələbələrdə peşə istiqamətlərinə olan meyl və marağı möhkəmləndirmək və şəxsiyyət yönümlü təlim işlərini yaradıcılıqla həyata keçirmək bacarığını inkişaf etdirmək. İstesalat təcrübəsinin məqsədlərinə nail olmaq üçün tələbələr tərəfindən aşağıdakı məsələlərin həll edimәsi həyata keçirilir: təhlil üçün vacib olan məlumatların etibarlı mənbədən olmasının yoxlanılması və təhlil edilməsi, tədqiqatın qısa və orta müddətli perspektivdə effektivliyinin yüksəldilməsinə istiqamətləndirilməsi, peşə bacarıqlarının əldə edilməsi və təkmilləşdirilməsi, ali təhsil müəssisələrində nəzəri təlim illərində qazanmış nəzəri bilikləri genişləndirilməsi və sistemləşdirilməsi. | |
| **CƏMİ** | | **240** |

| **İxtisas** | **Ümumi fənlər** | **İxtisas fənləri (o cümlədən mülki müdafiə)** | **ATM tərəfindən müəyyən edilən fənlər** | **Təcrübə** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **"050402 - Biznesin idarə edilməsi"** | **30** | **120** | **60** | **30** | **240** |